ədəbiyyat QƏZETİ

*İsmayıl bəy Qaspıralı*

# Ədəbiyyat çirkabları
## *yaxud*
## *Jorj Sandın sevgi oyunları*

***Artıq bir-iki ay olar ki, bütün Avropa mətbuatı fransız qadın yazarı Jorj Sandın (George Sandın) əxlaq və sevgi macəralarından bəhs edir. Bizə qalınca isə ölüb getmiş, artıq barəsində deyilənlərə cavab verməyəcək bir insanın əhvali-ruhiyyəsindən, onun özəl həyatından bəhs edib, bir çox xüsusiyyətlərini mühakimə etmək münasib deyilsə də, «hər nə olursa-olsun, təki oxunaqlı nəsə bir şey olsun» - deyə dərc etməyi münasib bilən Avropa mətbuatı bununla ədəbiyyatın çirkli, kirli-paslı sularını qapcaq-qapcaq meydana axıtdı.***

Bu çirkablı suları gizlədib ört-basdır eləməyə bizcə, elə bir lüzum da yoxdur. Jorj Sandın (George Sandın) bəzi gözəl əsərlərini oxumağın faydalı olacağı kimi, bəzi halları da - madam ki, ortaya qoyulmuşdur - Şərq əhli üçün ibrətdən xali deyildir. Avropanın yalnız yaxşı cəhətlərinə deyil, çürümüş gerçəkliyinə də bələd olmaq zəruridir…

Sözü çox uzatmayaq: Jorj Sand gözəl bir qadın, gözəl ədib, yazar idi. Yazdığı bəzi əsərlər çox qiymətlidir. Şöhrəti bütün Avropaya yayılmışdır. Jorj Sand ailə həyatı qurmuşdu. Lakin anlaşa bilməmiş, ayrılmışdılar. Burası təbiidir. Çünki məhəbbətsiz ömür sürmək ömür deyildir. Bundan sonra Jorj Sand bir neçə dəfə sevdi və sevildi. Avropa adətləri və baxışlarına görə bu da təbiidir. O, sonuncu eşq və məhəbbət macərasını məşhur şair Alfred de Musye (Alfred de Musst) ilə yaşadı. Can məhəbbətsiz, dostsuz yaşamaz. Buna qarşı da bir deyəcəyimiz yoxdur. Bir-birinə könül verib sevişmiş iki göyərçin kimi biri o birinə əziz olan məşhur şair və yazar xanım eşq bəxtiyarlıqlarını aləmə qısqanırmış kimi və aləmin nəzərindən uzaq, baş-başa bəxtli günlər keçirmək üçün Fransadan İtaliyaya yola düşürlər. Bu da çox əla!.. Eşq və məhəbbət naminə yalnız Parisin qaynar həyatı deyil, bir çox şeylər var ki, tərk və fəda edilir. Eşq və məhəbbət dinclik ilə sadəlik sevər. Bir-birinə aşiq bu iki göyərçinlər Venesiya şəhərinə qonurlar. Fəqət, necə olursa yolda Alfred de Musye soyuqlayır, qara-qızdırmaya tutulur və bu səbəblə yorğan-döşəyə düşür. Gündən-günə halı pisləşdiyindən əcəl ilə əlləşmək zorunda qalır.





İlk günlərdə sevgilisi Jorj Sand onun başı üstündən ayrılmayaraq sağalması üçün çalışır. Dəvət edilən yerli həkim də əlindən gələni əsirgəmir. Belə ki, təbibin elm və kamalı, Jorj Sandın məhəbbət və şəfqəti biçarə xəstəni yetərincə əhatə edir.

Bir neçə gün belə keçir. Fəqət, bu ötən günlər arasında Jorj Sandın könlündə yuva salmış və yanar dağ kimi qaynamağa başlamış yeni bir məhəbbət onu haqqında söz açılan təbibin qucağına atır - zavallı sevgilisi Alfred əzraillə can vuruşdurduğu bir vaxtda Jorj Sand yan otaqda ilac üçün dəvət olunmuş təbibin qolları arasında ötəri eşq macərasına uyaraq öz kefindən qalmır.

Nə əcaib könül, nə dərin, sirli eşq! Jorj Sandın və digər belə birisinin bu yolda işi əxlaq, psixoloji və patoloji nöqteyi-nəzərindən düşündürücüdür.

Təəssüf edərək yazdıq; təəssüf edərək oxumuş olsanız bəs edər…

*15 dekabr 1896*